**MHŞT üzrə Çoxtərəfli Qrupun 29-cu İclasının**

**Protokolundan Çıxarış**

**Bakı şəhəri** **13 mart 2014-cü il**

İştirak edirdilər:

**Çoxtərəfli Qrupun sədri**

Şahmar Mövsümov - ARDNF-nin İcraçı direktoru, MHŞT üzrə Komissiyanın sədri

**Çoxtərəfli Qrupun üzvləri**

Zaur Fətizadə - Vergilər Nazirliyinin nümayəndəsi

Bəxtiyar Axundov - Şirkətlər Qrupunun nümayəndəsi

Cəmilə Hadiyeva - Şirkətlər Qrupunun nümayəndəsi

Kamran Məhərrəmov – Şirkətlər Qrupunun nümayəndəsi

Qubad İbadoğlu - QHT-lər Qrupunun nümayəndəsi

İlham Hüseynli - QHT-lər Qrupunun nümayəndəsi

Elçin Abdullayev - QHT-lər Qrupunun nümayəndəsi

**Digərləri**

Fərid Fərzəliyev - MHŞT üzrə Katibliyin başçısı

Ülviyyə Mehralıyeva – MHŞT üzrə Katibliyin mütəxəssisi

Abbas Abbasov - MHŞT üzrə Katibliyin mütəxəssisi

Cəmalə Əliyeva - Dövlət Neft Fondunun nümayəndəsi

Fariz Əhmədov - Mur Stefens (Moore Stephens) audit şirkətinin nümayəndəsi

**İclasın gündəliyi:**

1. Kontekstual məlumatların toplanması və Auditorun Şərtlər Toplusunun Standarta uyğunlaşdırılması məsələlərin müzakirəsi
2. Yeni Memorandumun yekun layihəsinin müzakirəsi
3. QHT Koalisiyasının hazırladığı hesabat formalarının müzakirəsi
4. MHŞT üzrə fəaliyyət hesabatının (2013-cü il) layihə mətninin müzakirəsi
5. Digər məsələlər

**Kontekstual məlumatların toplanması və Auditorun Şərtlər Toplusunun Standarta uyğunlaşdırılması məsələlərin müzakirəsi üzrə qərara alındı:**

1. Auditorun Şərtlər Toplusu auditor tərəfindən Azərbaycan dilinə tərcümə olunaraq yekunlaşdırılsın və 19 mart tarixinədək Katibliyə göndərilsin.
2. "Seçmə üsulu"-nun tətbiq metodologiyası auditorun Şərtlər Toplusuna daxil edilsin.

**Yeni Memorandumun yekun layihəsinin müzakirəsi üzrə qərara alındı:**

1. Katiblik iclasda səslənmiş rəylərə əsasən yekun Memorandum layihəsini hazırlayaraq 14 mart tarixinədək tərəflərə razılaşdırmaq üçün göndərsin.
2. Azərbaycanda MHŞT üçün hüquqi bazanın yaradılması məsələsinə baxılması 2014-cü il üzrə MHŞT İş planına əlavə edilsin.

**QHT Koalisiyasının hazırladığı hesabat formalarının müzakirəsi üzrə qərara alındı:**

1. Auditor hesabat formaları üzərində yenidən daha dərindən işləyərək işləri yekunlaşdırsın və 19 mart tarixinədək yekun formaları Katibliyə göndərilsin.

**MHŞT üzrə fəaliyyət hesabatının (2013-cü il) layihə mətninin müzakirəsi üzrə qərara alındı:**

1. ÇQ üzvü Q.İbadoğlu 2013-cü il üzrə Fəaliyyət hesabatına daxil ediləcək Koalisiyaya dair məlumatları Katibliyə 19 mart tarixinədək göndərsin.
2. ÇQ üzvləri 2013-cü il üzrə Fəaliyyət hesabatının mətninə dair yekun rəy və təklifləri olduğu təqdirdə 19 mart tarixinədək Katibliyə bildirsin.
3. MHŞT tərəflərinin internet səhifələrinin ünvanları siyahısı Fəaliyyət hesabata daxil edilməsin.

**Digər məsələlər üzrə qərara alındı:**

ÇQ üzvü Q.İbadoğlu 19 mart tarixinədək İctimai televiziya kanalında MHŞT haqqında verilişin keçirilməsinə dair müraciətin ünvanlanması üçün keçiriləcək verilişin layihəsini hazırlayaraq Katibliyə göndərsin.